*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 389-394*
https://doi.org/10.62837/2024.4.389

**XANMƏDOVA GÜLŞƏN MÖHÜBBƏT QIZI**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Üzeyir Hacıbəyli küç.68**
**e-mail: gulsenxan33@gmail.com**

# METODİK ƏDƏBİYYATDA VƏTƏNPƏRVƏRLİK MÖVZUSU

## XÜLASƏ

Metodik ədəbiyyatın qarşısında duran ən mühüm vəzifələrdən biri də orta məktəb ədəbiyyat dərsliklərində əksini tapan vətənpərvərlik ruhlu əsərlərin lazımınca tədrisinə dair ən aktual məsələləri diqqət mərkəzinə gətirmək, bu sahə üzrə qazanılan zəngin təcrübəni öyrənib ümumiləşdirmək, alınan nəticələri nəzəri təhlil süzgəcindən keçirərək onların tədrisinin daha səmərəli yollarını göstərməkdir. Sovetlər dönəmində də, indi də - doğma respublikamız öz müstəqilliyinin bərpa etdikdən sonra da görkəmli metodist alimlərimiz bu sahəyə xüsusi diqqət yetirmiş, dərslərdə, sinifdənxaric və məktəbdənkənar işlərdə şagirdlərin vətənsevərlik ruhunda tərbiyə olunması işində faydalı elmi-metodik tövsiyələrini vermişlər. Bu cəhətdən Əlyar Qarabağlı, Şəmistan Mikayılov, Camal Əhmədov, Pənah Xəlilov, Aydın Hacıyev, Bilal Həsənli, Soltan Hüseynoğlu, Asya Bəkirova, Yusif Aslanov, Fəxrəddin Yusifov kimi metodistlərin bu mövzuların tədrisi üzrə tövsiyələri çox mühüm əhəmiyyət kəsb edir. Onların irəli sürdükləri fikirləri günümüzün reallıqları çərçivəsində yenidən nəzərdən keçirmək, ən səmərəli ideyaları götürmək və onları qarşımıza qoyulan tələblər ruhunda şərh eləmək bu gün daha çox aktuallıq kəsb edir ki, hazırkı işimizdə onu təqdim etməyi qarşımıza məqsəd qoymuşuq. Fikrimizcə, yeni əldə olunan uğurları təsvir və tərənnüm edən əsərlər də tədris prosesinə, sinifdənxaric və məktəbdənkənar tədbirlərə daha sıx cəlb olunmalıdır. Şəhid və qazilərimiz haqqında olan əsərlər tədris prosesinə daxil edilməlidir. Bəzi sənətkarlarımızın tərcümeyi-hallarında özünü qabarıq şəkildə göstərən vətən həsrətli motivlər də bu duyğuların aşılanmasına öz töhfəsini verməlidir.

**Açar Sözlər.** Vətənpərvərlik, vətən, metodik ədəbiyyat, ədəbiyyat dərsi, metodist

“Vətənpərvərlik nədir? Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik! Vətənpərvər gənclər yetişdirilməsi təkcə təhsil müəssisələrinin işi ilə bitmir. İlkin olaraq, ailədən başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etdirilir, bütün cəmiyyətin, onun hər bir üzvünün əməlindəki müsbət nümunələrlə yetkinləşir”.( 7 )

***Heydər Əliyev***

Metodik mənbələrə diqqət yetirdiyimiz zaman vətənpərvərlik mövzusunun qoyuluşu xüsusi ilə diqqəti cəlb edir. Belə ki, Əlyar Qarabağlı, Bilal Həsənli, Soltan Hüseynoğlu, Fəxrəddin Yusifov və s. digər metodistlər də daxil olmaqla hər biri metodikanın önündə duran ən vacib amillərdən birini şagirdlərin mənəvi inkişafında vətənə, yurda, öz milli kimliyə olan sevginin durduğunu qeyd etmişlər.

Əlyar Qarabağlı ali məktəb üçün yazmış olduğu "Azərbaycan ədəbiyyatının tədrisi metodikası" adlı dərsliyində göstərir ki, məktəbdə ədəbiyyat fənninn qarşısında bir sıra mühüm məsələlər vardır. Bunlardan biri də ədəbiyyatda vətən, millət, yurd sevgisidir. Metodistin fikrincə, orta məktəbdə təhsil alan şagirdlərin həyat , cəmiyyət haqqında olan fikirləri dar çərçivədə məhdudlaşdırılıb. Lakin doğru üsul və yollarla ədəbiyyat dərslərində şagisrdlər bu "dar çərçivə"dən xilas ola bilər. Bununla yanaşı metodik vəsaitdə göstərilir ki, "4-7-ci sinflərdə ədəbiyyat dərsləri aşağıdakı əsas məqsədləri güdməlidir.

1. Təhsil məqsədi
2. Tərbiyəvi məqsəd" (4, s. 18)

Burada göstərilən tərbiyəvi məqsədin əsasında şagirdlərin əxlaqi cəhətdən inkişafına yardım etmək, onlarda vətənə, xalqa sevgi oyatmaq, əməyə məhəbbət hissinin artırılması, məsuliyyətli olmaq, sədaqət, vəfa kimi insani keyfiyyətlərin formalaşması durur.

"Müəllim: -Vətən haqqında onlarca şeir yazılıb, çoxlu misralar, beytlər deyilib. Lakin onların arasında ən çox yadda qalanı və xoşa gələni Abbas Səhhətin bu şeirindəki

Könlümün sevgili məhbubu mənim
Vətənimdir, vətənimdir, vətənim.

misralarıdır. Kim bunun səbəbini izah edə bilər? Bu misraları gözəlləşdirən nədir?" (5, s. 126)

Soltan Hüseynoğlunun "Ədəbiyyat dərslərində yeni texnologiyalar; Fəal interaktiv təlim" metodik vəsaitində də ədəbiyyat dərsliklərinə daxil edilmiş vətənpərvərlik mövzusunda yazılan bəzi əsərlərlə bağlı qeydlər vermişdir. Vəsaitdə göstərilir ki, Əhməd Cavadın "Göygöl"qoşmasının tədrisinə proqramda 2 saat ayrılmışdır, və təəssüf ki bu şeiri əksər hallarda müəllimlər peyzaj lirikası nümunəsi olaraq göstərir və şeirin alt qatındakı əsas mənanı duya bilmir. Müəllif qeyd edir ki:

"Ə.Cavadın bu əsərinin qavranılmasının ikinci çətinliyi onun mənası, daha dəqiq deyilsə, mətnaltı mənası ilə bağlıdır. Azərbaycanın müstəqilliyini hər şeydən uca tutan böyük vətənpərvər şair – Əhməd Cavad milli dövlətimizin rus işğalçıları tərəfdən devrilməsi ilə heç cür barışa bilmirdi. Şair Göygölün timsalında vətənimizin başının üstünü duman aldığnı bəyan edirdi və "qələm dostları" xüsusi orqanlara bu barədə dərhal çuğulçuluq edirdilər.) Bu şeir nümunəsi hal-hazırda 9-cu sinif proqramına daxil edilmişdir." (3, s. 133)

Bilal Həsənlinin "11-ci sinif ədəbiyyat dərslərində Əhməd Cavadın həyat və yaradıcılığının öyrədilməsi imkanları" məqaləsində də Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, himnimizin sözlərinin müəllifi Əhməd Cavad yaradıcılığının öyrənilməsində müxtəlif yollardan bəhs etmişdir. Onun fikrincə şairin yaradıcılığı onun həyatı ilə parallel öyrənilməlidir. Şagirdlər bu vətənpərvər şairin həbs olunma səbəbini bilməli, qanl repressiya vaxtından xəbərdar olmalıdır. Müəllif qeyd edir ki, Əhməd Cavadın "Səsli qız" poemasının tədrisinə 4 saat vaxt ayrılmışdır. "XI sinif ədəbiyyat dərslərində "Səsli qız" poemasının öyrənilməsinə 4 saat vaxt ayrılmışdır:

– Əsərin məzmununun öyrənilməsi – 2 saat

– Poemanın təhlili – 1 saat

– Tətbiq. Müzakirə. Yaradıcı iş – 1 saat" (1, s, 68)

Eyni zamanda Fəxrəddin Yusifovun "Ədəbiyyatın tədrisi metodikası" kitabının ilk səhifələrində yazılan "Qarabağımızın azad olunmasında əvəzsiz xidməti olan Ali Baş komandanımızın, igidliklə vuruşan mərd oğullarımızın, qazilərimizin şərəfinə, Mübariz İbrahimov, general Polad Həşimov kimi Milli qəhrəmanlarımızın, şəhidlərimizin əziz xatirəsinə" cümləsi gələcəyin müəllim namizədlərinə vətən qayəsi, amalı, sevgisi kimi hisslərin daha da artmasında xüsusi əhəmiyyət kəsb edir.

Metodistin fikrində ədəbiyyatın qarşısında duran ən mühüm vəzifələrdən biri şagirdlərə həyati bacarıqların aşılanması, vətənsevərlik, azərbaycançılıq və dövlətçilik ənənələrinə sadiq vətəndaşlar yetişdirməkdir.

Metodik vəsaitin təhlil dərslərinin quruluşu başlıqlı hissəsində Abbas Səhhətin "Vətən" şeirinin təhlili üzrə iş geniş şəkildə izah olunmuşdur. Müəllif motivasiya hissəsində vətənlə bağlı video çarx verilməsini daha məqsədəuyğun hesab edir. Bununla yanaşı burada şagirdə ünvanlanmalı yaradıcı suallar, dərsin gedişatı ilə bağlı da qeydlər verilmişdir. Məsələn: "Şair bu şeirini nə üçün Vətən adlandırmışdır?" (6, s. 262)

Eyni zamanda müəllif 11-ci sinif ədəbiyyat dərsliyinə daxil edilən "Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılıq yolu" mətnindən irəli çıxaraq bu nümunəni verə və bu nümunə üzərindən suallar ünvanlaya bilər:

"Qələmin müqəddəs vəzifəsi xalqına xidmət etməkdir" (C.Məmmədquluzadə). Şagirdlərdən soruşulur: Verilmiş cümləyə münasibət bildirin." (6, s. 259)

Bütün yuxarıda sadaladığımız metodik əsərlərin hər birində şagirdlərə aşılanan əxlaqi keyfiyyətlərin önündə vətənə olan sevgi, hörmət dayanır.

Məlumdur ki, Azərbaycan son bir neçə ildə qazandığı nailiyyətlər tarix səhifələrində silinməz iz qoymuşdur. XI əsrdə müzəffər, yenilməz Azərbaycan ordusu erməni silahlı qüvvələrinə qarşı apardığı 44 günlük müharibədə misli bərabəri olmayan qalibiyyət qazanaraq, düşmən tapdağı altında illərdir əzilən torpaqlarımıza yeni nəfəs verdi. Müdrik, siyasi və diplomatik bacarığı ilə seçilən, sərkərdə-Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qalib ordumuz bu yeni hərb tarixində heç zaman silinməyən şanlı səhifələr yazdı. Ordumuzun qəhrəman oğulları hər birimizin qürurunu təzələdi. Onların arasında döyüşlərin qızğın getdiyi bir vaxtda şer söyləmələri, mahnı ifa etmələri, fortepianoda musiqi ifa etmələri diqqət çəkən vacib məqamlardan biri idi. İstər döyüş bölgələrində, istərsə də arxa cəbhədə vaxtilə ədəbi əsərlərdə oxuduğumuz bədii obrazların qəhrəmanlığını, şücaətini gördükcə belə qənaətə gəldim ki, istənilən halda şairlərimizin, yazıçılarımızın müharibə, vətənpərvərlik, vətən eşqi mövzusunda yazdıqları əsərlər, müğənnilərimizin bu mövzuda ifa etdikləri mahnıları, rəssamların məşhur fırça əsərləri, kino və teatr nümunələri həqiqətən də gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmalarında müstəsna rol oynamışdır. Fikrimizcə, bu bədii əsərlərə dönə-dönə müraciət etmək, onları gənc nəslə aşılamaq, gənc nəslin vətənpərvər ruhda böyüməsi üçün çox vacibdir. Bu əsərlərin təsirini II Qarabağ savaşında, eyni zamanda yaxın

günlərdə şahidi olduğumuz "Antiterror" əməliyyatı zamanı qəhrəmanlıq göstərən zabit və əsgərlərimizdə, qazi və şəhidlərimizdə şahidi olduq.

"Qarabağ Azərbaycandır!" çağırışı vaxtilə ölkəmizin ikiyə bölünməsini ürək ağrısı ilə "Gülüstan" poemasında dilə gətirərək:

Qoy ildırım çaxsın, titrəsin cahan!

Ürəklər qəzəbdən coşsun, partlasın. -deyə, üsyan edən Bəxtiyar Vahabzadə və onun kimi bir çox yazıçı və şairlərimizin gerçəkləşmiş arzusu oldu və ruhlarını rahatlatdı. Sevindirici hal ondadır ki, Bəxtiyar Vahabzadənin igid babalar dediyi ulularımızın nəvələri tarix yazdılar.

Zəfərimizlə bağlı möhtəşəm filmlər ərsəyə gəlməli, unudulmaz musiqilər bəstələnməlidir. Musa Yaqubun söylədiyi "Bu dünyanın qara daşı göyərməz." ifadəsinə cavab olaraq "dünyanın deyə bilmərik amma bizim ölkənin artıq qara daşı göyərir, ifadəsini söyləmək istəyirik. Qarabağlı, bütöv Azərbaycan sən azadsan!

**İstifadə edilmiş ədəbiyyat\References**

1. Azərbaycan dili və ədəbiyyat tədrisi xüsusi buraxılış – 2022.
2. Həsənli.B Ədəbiyyatın tədrisi metodikası – Bakı, -2016.
3. Hüseynoğlu.S Ədəbiyyat dərslərində yeni texnologiyalar; Fəal interaktiv təlim – Bakı, -2009.
4. Xəlilov.P. Ədəbiyyat dərslərində milli məfkurə təbliğinin imkan və üsulları - Bakı: Maarif, -1977.
5. Qarabağlı.Ə Azərbaycan ədəbiyyatının tədrisi metodikası - Bakı, -1968.
6. Yusifov.F "Ədəbiyyatın tədrisi metodikası" – Bakı, -2023.
7. file:///C:\Users\Hp\Downloads\heyder-eliyev-vetenperverlik-haqqnda.html

**KHANMADOVA G.M.**

## THE THEME OF PATRIOTISM IN METHODOLOGICAL LITERATURE

## SUMMARY

One of the most important tasks facing the methodological literature is to bring to the center of attention the most relevant issues related to the proper teaching of patriotic works reflected in high school literature textbooks, to study and summarize the rich experience gained in this field, and to show more efficient ways of teaching them through the filter of theoretical analysis. In Soviet times and now - after our native republic regained its independence, our prominent Methodist scientists paid special attention to this field and gave useful scientific and methodological recommendations for educating students in the spirit of patriotism in classes, out of class and extracurricular activities. In this regard, the recommendations of methodists such as Alyar Garabaghli, Shamistan Mikayilov, Jamal Ahmadov, Panah Khalilov,

Aydin Hajiyev, Bilal Hasanli, Soltan Huseynoghlu, Asya Bakirova, Yusif Aslanov, Fakhraddin Yusifov on the teaching of these subjects are very important. Re-examining the ideas put forward by them within the framework of today's realities, taking the most effective ideas and interpreting them in the spirit of the demands placed before us is more relevant today, which we have set ourselves the goal of presenting in our current work. In our opinion, the works that describe and glorify the newly achieved successes should also be more closely involved in the educational process, out of school and extracurricular activities. The works about our martyrs and veterans should be included in the educational process. The motives of longing for the homeland, which are prominently displayed in the biographies of some of our artists, should also contribute to instilling these feelings.

**Keywords. Patriotism, homeland, methodical literature, literature classes, methodist**

**ХАНМАДОВА Г.М.**

## ТЕМА ПАТРИОТИЗМА В МЕТОДИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

### РЕЗЮМЕ

Среди задач, стоящих перед методической литературой, одной из важнейших является привлечение внимания к наиболее актуальным вопросам правильного преподавания патриотических произведений, нашедших отражение в школьных учебниках литературы, изучение и последующее обобщение богатого опыта, накопленного в данной области, и наведение на более эффективные пути их преподавания путем анализа полученных теоретических результатов. И в советское время, и во времена восстановления независимости нашей родной республики выдающиеся ученые-методисты уделяли особое внимание данному направлению и предоставляли полезные научно-методические рекомендации в рамках работы по патриотическому воспитанию учащихся в урочной, внеурочной и внешкольной деятельности.

В связи с вышесказанным, рекомендации таких методистов, как Алъяр Карабахлы, Шамистан Микаилов, Джамал Ахмедов, Панах Халилов, Айдын Гаджиев, Билал Гасанлы, Солтан Гусейноглу, Ася Бакирова, Юсиф Асланов, Фахраддин Юсифов представляют большую значимость в преподавании данных предметов. Повторное рассмотрение идей, выдвинутых ими, в рамках реалий сегодняшнего дня, заимствование наиболее эффективных идей и интерпретация их в духе требований, предъявляемых к современности, становится все более актуальным, поскольку в своей работе мы поставили перед собой цель представить их в настоящей работе. По нашему мнению, произведения, изображающие и прославляющие вновь достигнутые успехи, также должны быть более тесно вовлечены в учебный процесс, внеурочные и внешкольные занятия. Произведения о наших шехидах и ветеранах необходимо включать в образовательный процесс. Мотивы тоски по родине,

ярко проявляющиеся в автобиографиях некоторых наших деятелей искусства, также должны способствовать проникновению этих эмоций.

**Ключевые Слова.** Патриотизм, родина, методическая литература, урок литературы, методист

**Redaksiyaya daxil olma tarixi:**
**Çapa qəbul olunma tarixi:**
**Rəyçi: Ped.ü.f.d.,dos.Yusifov Fəxrəddin**
**tərəfindən çapa tövsiyə**